

*Aqil İman*

# *Başımdan Şuşanın havası gedir*

**”Torpaqdan pay olmaz” deyən babalar,**
**Oyanın, qartallar yuvası gedir.**
**Gözümdən Laçının tökülən qanı,**
**Başımdan Şuşanın havası gedir.**

**Olsa danışardı, dili daşın da!**
**Min düyün gizlədib zirvə qaşında.**
**O köçün önündə, doxsan yaşında**
**Babamdı, əlində hasası gedir.**

**Dirilən ölüdü gorda Qarabağ,**
**Çırpınır balıqtək torda Qarabağ,**
**Kömək gözləsə də burda Qarabağ,**
**Bakıda vəzifə davası gedir.**

**Nə yaman bəd gəldi bu il may, İman,**
**İtdi xətir-hörmət, haqqı-say, İman,**
**Gözüm görə-görə torpaq, ay İman,**
**Çox uzun danışma, qısası, gedir.**

**May, 1992-ci il**

Ədalət.- 2020.- 9 may. S. 9.